MÖVZU. ***FİLOLOGİYADA QENDER ASPEKTİNİN GENEZİSİ VƏ ONUN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ***

*Filologiyanın qender aspektinin yaranması və onun öyrənilmə tarixi. Filologiyada qender aspektinin əsas konsepsiyaları və istiqamətləri. Filologiyada yeni qender tədqiqatları və inkişaf perspektivləri*

İlk dəfə Qərbdə yaranmış qender tədqiqatları təkcə qadınların kişilərin hakimiyyəti altından azad etmək məqsədini güdmürdü. Bu öz hüquqlarını müdafiə etməkdə imkanları məhdud olan cəmiyyət üzvlərinin hüquqlarını, xüsusiyyətlərini, müxtəlifliyini nəzərə almağa çağıran demokratik dünyagörüşün bir növüdür.

Qender tədqiqatları XX əsrin 60-70-ci illərində Qərbdə elmin fənlərarası bir sahəsi kimi yaranmışdır. Bir qədər sonra 80-ci illərin sonu, 90-cı illərin əvvəlində qender tədqiqatları postsovet məkanında yayılmağa başladı və o vaxtdan humanitar elmlərin müxtəlif istiqamətlərində əsas rol oynamağa başladılar.

Qeyd etmək lazımdır ki, qender tədqiqatları qərb ölkələrində məhz strukturalizmin tənqidi və postmodernism fəlsəfənin formalaşması dövründə intensivləşib. Bəs bu faktın dilçilik və ədəbi yaradıcılıq üçün əhəmiyyəti nədən ibarətdir? Bu suala cavab vermək üçün postmodernizm kimi xarakterizə olunan müasir təfəkkürün tendensiyalarının formalaşması ilə nəticələnən proseslər haqqında təsəvvürə malik olmaq lazımdır. Bu birici növbədə poststrukturalizm, dekonstruktivizm və feminizminin bəzi cərəyanlarıdır. Onların təfəkkür nəzəriyyəsinə prinsipial yenilik gətirməsi şübhəsizdir. Məlum olduğu kimi, poststrukturalizm və postmodernizm dil fəlsəfəsi ilə bağlıdır. Onların postmodernist kimi müəyyən oluna bilən bir çox ümumi cəhətləri mövcuddur.

Birincisi, bütün adı çəkilən cərəyanlar sabit bünövrəni, danılmaz nəzəri-zəruri şərtləri və qanunuyğunluqları inkar edirlər. Onları, ümum-nəzəri sistemlərin mütləq və ya universal normalarına inamsızlıq birləşdirir;

İkincisi, onlar maarifçilik dövründən bu tərəfə qərb təfəkkürünün əsası olan rasional, tam subyekt ideyasını şübhə altına qoyurlar.

Üçüncüsü, bu cərəyanların nümayəndələri, plüralizm, natamamlıq və qeyri-müəyyənlik tərəfdarı kimi sosial bütövlük və səbəbiyyət anlayışını rədd edirlər.

Nəhayət, bütün bu postmodernist təfəkkürü istiqamətləri reallığın dil konsepsiyasını qəbul edirlər, çünki, bizim reallıq kimi qəbul etdiyimiz şeydə onlar bizə miras qalan linqvinist sistemin nəticəsi olan sosial və linqvistnistcəsinə quraşdırılmış fenomeni görürlər. Onlar iddia edirlər ki, biz dünyanı ancaq dil formaları vasitəsi ilə dərk edirik. Bundan belə bir nəticə çıxır ki, bizim təsəvvürlərimiz reallığı əks etdirə bilməz, çünki, o, dilin hüdudlarından kənarda mövcuddur. Bu təsəvvürlər ancaq başqa dil ifadələri ilə əlaqələndirilməlidir.

Beləliklə, postmodernist konsepsiya iddia edir ki, reallıq əslində bizim şüurumuzun bir növ «linqvistik kələyidir»: fərdin reallıq kimi qəbul etdiyi əslində sosial və linvinis şəkildə quraşdırılıb.

Postmodernizm fərdin şüurunun dilin stereotiplərindən asılılığını sübut etməyə çalışır. Yəni, fərz edilir ki, hər kəsin şüurunda mətnlər toplusu var ki, onlar insanın gerçəkliyə münasibətini, davranışını müəyyən edir və diskursiv praktika vasitəsilə ifadə olunur. Bununla əlaqədar dilə müstəsna əhəmiyyət verilir, linqvinistika dil haqqında elm kimi mərkəzi elmlərdən birinə çevrilir.

Feminizmin təsiri nəticəsində cins məsələsi postmodernizmdə vacib yer tutur. Jins və yaş, şəxsiyyət statusunun əsaslandığı kateqoriyalardır. C.Derridanın ideyalarına görə dünyaya baxış və dəyərlər sistemi «ağ Avropa kişilərinin» mövqeyindən formalaşır. Başqa sözlə, müasir insanın şüuru, onun cinsindən asılı olmayaraq, kişi ideologiyasının ideya və dəyərləri ilə hopdurulub ki, onlarda kişi mənşəyinin məntiqi, rasionallığının üstünlüyü və qadının obyekt (hədəf) olduğu danılmazdır.

Qeyd etmək lazımdır ki, cinslərin qarışıqlı əlaqəsi probleminə müxtəlif şəkildə hələ qədim zamanlarda toxunurdular. Tədqiqatçılar qeyd edirlər ki, feminizmə maraq artıq qədim yunan fəlsəfəsində olmuşdur. Bəzi tədqiqatçılar feminizmi humanizmin yarandığı intibah dövrü ilə bağlayırlar. Amma hər halda bütün insanların təbii və hüquqi bərabərliyi məsələsi Böyük Fransa burcua inqilabından əvvəl və sonra müzakirə obyektinə çevrilmişdir. Deməli, müasir feminist fikrin kökləri 18-ci əsrin sonuna gedir. Meri Uollstounkraftın (1759-1797) yaradıcılığı məhz bu dövrə düşür. O «Qadının tabeçiliyi haqqında» əsərini yazaraq Russonun tərbiyə sisteminə qarşı çıxır.

Bu ideyanın geniş yayılmasına S.de Bovuarın «İkinci cins», həmçinin M.Fukonun sosial ünsürləri bioloji ünsürlər üzərindəki - (hətta cinslərin münasibətləri kimi təbii sahədə) dominantlığından bəhs edən «Biliyə doğru iradə» kitabı böyük rol oynamışdır. Feministlər cəmiyyətdə patriarxatın hökmranlığı haqqında və bütün mətn və diskursiv təcrübələri vasitəsilə fərdlərə məhz patriarxal dəyərlər aşılandığı haqqında tezis irəli sürdülər.

Xarici dilçilik və ədəbiyyatşünaslıqda bir tərəfdən dildə və mətnlərdə möhkəmlənmiş femin və maskulin stereotipləri, eləcə də qender assimetriyalarını, digər tərəfdən isə qadın və kişilərin dil davranışının xüsusiyyətlərini öyrənən linvistikasının sələfi bu günə qədər mövcud olan dil tənqidi və ya feminist linqvistikadır. Onun aşkara çıxartdığı qanuauyğunluqlar dil sistemində «antiqadın» assimetriyasının olduğunu sübut edir. Belə nəticə, linqvinist nisbilik hipotezi mövqeyindən izah olunur: dil təkcə cəmiyyətin inkişaf məhsulu deyil, həm də onun şüur və mentallığını formalaşdıran vasitədir. Buna əsaslanaraq, feminist dil tənqidi, dil normalarının dəyişməsi və yenidən dərk edilməsində israr edirlər, belə hesab edirlər ki, dilin və dil siyasətinin şüurlu formalaşdırılması kifayət qədər məhsuldar faktorlardır.

Feminist linqvistikası çox tex «təmiz» linqvistikanın çərçivəsindən kənara çıxdı. Onun xüsusiyyəti məhz bundadır. Dilçiliyin bu istiqamətinin radikallığı və dil normalarının, imkan daxilində dil sisteminin özünü dəyişdirmək arzusu kəskin fənlərarası diskussiyaya səbəb oldu.

Qender tədqiqatlarının, həmçinin müstəqil yeni istiqamətin – maskulinliyin öyənməsinin meydana çıxması məhz bu polemika ilə şərtlənib

Bu sahədə ilk işlər Qərbdə yarandı. Bu, german və roman dil qrupları bazasında qadın və kişi nitqi xüsusiyyətlərinin ilk sistemli təsviridir.

XX əsrin əvvəlində E.Sepir, O.Espersen, F.Mauterin əsərləri çıxdı ki, onların hesabına dil və kommunikasiyalarda qender aspektlərinə maraq artdı. 1913-cü ildə Mauterin kitabı çıxdı ki, burada o, dildə olan qender fərqlərini qəbul edir və onları sosial və tarixi səbəblərlə izah edir.

Müxtəlif sosial təbəqələrdə müəllif qadın və kişilərin nitqi davranışlarının bir sıra xüsusiyyətlərini aşkara çıxarır. Mautnerin fikrinə görə qadınlar daha az savadlıdırlar və buna görə də onlar yerli-yersiz əcnəbi sözlər işlədirlər. Təhsilli kişilər isə onları doğma dildə ekvivalent tapa bildikləri üçün işlətmirlər. Mautner hesab edirdi ki, kişilər dildən yaradıcı şəkildə istifadə edə bilir, qadınlar isə ancaq kişilərin yaratdığı dili mənimsəməyə qadirdirlər.

«Qadın dilinin» yaranmasını Mautner, antiktlartda qadın rollarını kişilərin ifa etməsi ilə əlaqələndirir.

E.Sepir öz diqqətini hind dillərində olan sosial identikliyi implikasiya edən fərqlərə yönəltmişdir. Tədqiqatçının rəyinə görə cins və status sosial identikliyin elə ölçülərinə aiddir ki, onlar linqvistik formalar vasitəsilə «normadan uzaqlaşan» nitqi ifadə edirlər. Sepirin əsərlərində həm də bir morfemin çərçivəsində fonoloji fərqlər, cinsin siqnalizasiyası kimi interpretasiya olunaraq öyrənilir. Sonrakı tədqiqatlar sübut edir ki, Sepirin bir çox dillərin morfologiyasında cinsin ideksal markalanması fikri doğrudur. Tədqiqatlar aşkar edirlər ki, linvqistik ədəbiyyatda möhkəmlənmiş qender differensiallaşmasının ən tez-tez istifadə olunan əsas üsulu - məhz bu tip fərqlərdir.

Keçmiş Sovet İttifaqında bu proses daha sonra 80-ci illərin sonu – 90-cı illərin əvvəlində inkişaf etməyə başlamışdır. Bu sürətli inkişaf yeni terminin – qender linqvistikası və ya linqvistik qenderologiya – yaranmasına səbəb oldu.

Qeyd etmək lazımdır ki, bu termin bəzən şübhə altına alınır. Amma bu terminin də mövcudluğa hüququ var.

Əgər 90-cı illərin ortalarında dilçilikdə qender problematikası ilə çox az linqvistlər tanış olduğu halda, indi bu çox populyarlaşıb. Müntəzəm olaraq fənlərarası konfranslar və başqa elmi formalar keçirilir, çoxlu nəşrlər çıxır, periodik nəşrlər meydana çıxıb, elmi şöbələr açılır. Sözsüz ki, bu sahədə də bəzi problemlər var. Tədqiqatçılar qeyd edirlər ki, metodiki baza kifayət qədər işlənməyib və hər bir dilin hesabı kafi deyil. Çox hallarda tədqiqatlar ingilis dilinin Amerika variantı materiallarında aparılır və onların nəticələri başqa dillərin materiallarına keçirilir.

Linqvistikada qender tədqiqatlarının məqsəd və vəzifələrinin müxtəlif qavranılması da mühüm elmi problemlərdən biridir. Bir çox hallarda qender tədqiqatları ancaq sosial linqvistikaya aid olunur. Məsələn, tədqiqatçı sözləri ilə desək, «hətta xüsusi sosial linqvistika fənni – qender linqvistikası yaranmışdır ki, bu dil daşıyanların cinsə görə fərqləri ilə əlaqədar dil hadisələrini öyrənir.

Qeyd etmək lazımdır ki, qender problematikasının dilşünaslıqda elmi öyrənilməsinin ilk dövründə tədqiqatların diqqət mərkəzində ümumelmi suallar dururdu: qenderin ontoloji statusu, onun sosial-mədəni mahiyyətinin dərk edilməsi və onun postmodernist fəlsəfə konmətnində öyrənilməsi. Xarici tədqiqatların konsepsiyaları sistemləşdirilir, onların tədqiqatlarının nəticələri rus və bir neçə başqa dilin materialı üzərində verifikasiya etmək cəhdləri edildi.

Linqvistik qenderologiya əsas sualını aşağıdakı kimi formalaşdırmaq olar:

Qender yanaşmasının tətbiqi linqvist təsvirində nəyi dəyişdirir? Əlbəttə birinci növbədə bu dilin və əsərin bu və ya başqa faktına başqa cür baxmaq, ona yeni izah vermək imkanı verir. Mətnlərə yeni baxış, ənənəvi, ədəbiyyatşünas və sosial-siyasi traktovkalardan uzaqlaşmağa və əsərləri «qadınlıq» və «kişilik» anlayışları haqqında təsəvvürlər baxımından analiz etmək imkanı verir. Qender tədqiqatları sahəsində çalışanlar yeni axtarış sahəsi yaratmaqdansa, yeni təfəkkür üsulların formalaşdırmasına daha çox üstünlük verirlər.

Beləliklə, qender yanaşması filologiyada insan faktorunu daha dəqiq nəzərə almağa imkan verir.

Linqvistikada qender tədqiqatları problematikasına bir-biri ilə sıx bağlı olan diaxron və sinxron aspektlərdə baxılır. Dilin və onun daşıycısı olan cinsin arasındakı qarşılıqlı əlaqəsinin öyrənilməsini 2 dövrə bölünür ki, onların sərhəddi XX əsrin 60-cı illəridir.

1. bioloji determinizm – əsasən dağınıq faktorların müşahidələrinə əsaslanan, başqa elmlərlə əlaqəsi olmayan, qeyri-müntəzəm tədqiqatlar.

2. əsil qender təlqiqatları – 60-cı illərdən başlayaraq geniş miqyaslı təbqiqatlar aparılır ki, bu dilçiliyin praqmatik aspektinə marağın artması, sosial linqvistika inkişafı, cəmiyyətdə qadın və kişi rollarının ənənəvi bölgüsündə baş verən dəyişikliklərlə əlaqədardır ki, bu da linqvistik faktlarına yeni işıqda baxmağa və yeni baxımdan şərh etməyə imkan verir.

Keçid dövrü (XX əsrin I yarısı).

Bu sahədə ilk işlər Qərbdə yarandı. Bu german və roman dil qrupu bazası əsasında qadın və kişi nitqlərinin xüsusiyyətlərinin ilk sistemli təsviri idi. Rusiyada bu proses bir qədər gec - 80-ci illərin sonu – 90-cı illərin əvvəlində inkişaf etməyə başladı.

Hal-hazırda cins fenomeni ilə əlaqədar dilin sistemli təsviri və dərk edilməsinə həsr olunmuş bir sıra əsərlər meydana çıxıb, qenderin nəzəri modeli yaradılır və s.

Qərbdə əsasən 3 istiqamət və ya yanaşma müəyyən olunur.[1]

Birinci istiqamətin nümayəndələri qadın və kişi dilinin sırf sosial təbiətini müzakirə edirlər. Onların tədqiqatları elə dil fərqlərinə yönəldilib ki, onları cəmiyyətdə sosial hakimiyyətin bölüşdürülməsinin xüsusiyyətləri ilə izah etmək olar. Bu zaman «kişi» və «qadın» dili əsas dilin işlək törəməsi kimi müəyyən olunaraq, partnyorların sosial iyerarxiyanın müxtəlif pillələrində olduqdarı zaman işləndiyi göstərilir.

İkinci – sosial-linqvist yanaşma – «qadın» və «kişi» dilini cinslərin dil davranışlarının xüsusiyyətlərinə qədər ixtisar edir. Bu istiqamətdə işləyən alimlər üçün statistik göstəricilər və ya orta parametrlərin müəyyən edilməsi əsaslı əhəmiyyətə malikdir və kişi və qadın nitq davranışları tiplərinin psixolinqvistik nəzəriyyəsi qurmaq üçün kavkaz rolunu oynayır.

Üçüncü istiqamətdə əsas diqqət cinslərin dil davranışındakı müxtəlifliyin koqnitiv aspektlərinə verilir. Müxtəlifliyin miqdarının müəyyən edilməsi və onun göstəricilərindən istifadə ilə yanaşı, dil kateqoriyalarının koqnitiv linqvist modellərinin hazırlanması da mühüm sayılır.

Qeyd etmək lazımdır ki, müasir elmi paradiqmada hər üç yanaşma bir-birini qarşılıqlı şəkildə tamamlayır. Ancaq cəm halında olan izahedici qüvvəyə malikdir.

Dilçilikdə qender tədqiqatları arasında feminist linqvistika və ya dilin feminist tənqidi xüsusilə seçilir. Bunun səbəbi onun fənlərarası yanaşmasıdır. Məhz bu zaman, o həm də dilin qender tədqiqatlarının və davamçısı olduğu tənqidi linqvistikanın çarparlaşdığı yerdə durur. Onun yaranmasına səbəb nədir? Elmi ədəbiyyatda ekstralinqvistik və intralinqvistik səbəblər göstərilir.

Ekstralinqvist səbəblər – bu Qərbdə feminizmin populyarlığı, koqnitiv təkamülün çiçəklənməsidir. Məlumdur ki, kişilərin həmişə elmə, təhsilə və sosial həyatın başqa sahələrinə daha geniş şəkildə daxil olmaq imkanları olub. Qadınların koqnitiv fəaliyyəti isə ancaq analıq və kişi vəzifələrinə əməl olunması ilə məhdudlaşır. Qadınların kişilərin biliklərinə yiyələnmək imkanından sonra, onların koqnirtiv həyatında böyük aktivlik, dinamiklik müşahidə olunur.

---

[1] Колосова О.А. Когнитивные основания языковых каегорий. (На материале современного английского языка). Дис. на соиск. уч.ст.док.фил.наук.: М., 1996

İntralinqvistik səbəblər – bu 50-60-cı illərdə psixolinqvistika, praqmatika, kommunikasiya nəzəriyyəsi və linqvistikanın özündə bir sıra yeni elmi istiqamətlərin meydana gəlməsidir.

Feminist linqvistikanın nəzəri bazasını tənqidi linqvistikanın konsepsiyası, Humbolt və onun tərəfdarlarının nəzəriyyələri, «dil nisbiliyinin nəzəriyyəsi» təşkil edir.

Humbolt hesab edirdi ki, dil milli ruhun ifadəsidir. Dil bir növ insanın şüuru ilə xarici aləm arasında duran «aralıq dünyadır». O elə bir qüvvədir ki, dünyanı ideyalara çevirir və bu zaman dünyanın özünü də verballaşdırır və dəyişdirir. İnsanların fikir və hərəkətlərinə, cəmiyyətin inkişafına kəsərli təsir göstərən dil dünyanın bir növ obrazını yaradır. Humbolt ilk dəfə olaraq, hər dilin öz xalqı ətrafında çevrə çəkdiyi haqqında fikri irəli sürmüşdür.

«Linqivistik nisbiliyi» nəzəriyyəsi konsepsiya kimi XX əsrin 30-cu illərində ABŞ yaranmışdır. Bu nəzəriyyəyə görə dil, nəinki cəmiyyətin məzhsuludur, o, həm də onun şüur və mentallığının formalaşması üçün bir vasitədir.

Feminist tənqidində 2 əsas istiqaməti müəyyən edirlər. Birincisi – dünyanın dil xəritəsində qadının obrazının diskriminasiyası tədqiq edilir və ya «dil sistemində qadınlara yönəldilmiş assimetriya». Bunun nümayəndələri belə hesab edirlər ki, dil dünyanı kişicəsinə görür və kişicəsinə qiymət dəyərləri hamıya «sırıyır». Dildə əks olunmuş qadın obrazı neqativ xarakteristikalarla təchiz olunub. Bu istiqamət həmçinin qrammatik kişi halını analiz edən işlərə də aiddir.

Birinci istiqamətin mərkəzi obyektlərindən biri dilin leksikonu oldu ki, məhz onda qadınlara qarşı neqativ şərhlər aşkar əks olunub. Bu sahədə aparılan tədqiqatlar aşağıdakıları aşkar etdilər: sintaksis səviyyədə uzlaşma, uyğun nitq hissəsinin qrammatik halının forması üzrə gedir. «İnsan» və «kişi» eyniləşdirilir, bir sıra Avropa dillərində bu iki anlayış sadəcə olaraq bir-birini əvəz edə bilər, qadın formaları isə adətən kişi formalarından törəyir (rus dilində student-studentka, alman dilində də eyni şey mövcuddur).

Bir çox Avropa dillərində qadın obrazına mənfi xüsusiyyətlər aid olunur. kişiyə aid olan ifadələr qadının referentinə tətbiq ediləndə, bu, onun nüfuzunu qaldırır, vəziyyət tərsinə olanda isə kişi cinsinin referenti xeyli alçalmış olur.

Dilin feminist tənqidinin, ikinci «diskursiv» istiqaməti əvvəlki qədər genişdir. İkinci istiqamətin nümayəndələrinin diqqəti mətn arasındakı qarşılıqlı münasibətlər strukturunda diskursun bütün xüsuiyyətlərinin öyrənilməsinə cəmləşdirilib.

Dilin feminist tənqidinin ikinci istiqamətinin tədqiqatlarını cəmləməklə demək olar ki, onlar nitqi davranışın qadın və kişi stilində fərqləri təsbit edirlər. Qadınlar sual verməyə daha çox meyllidirlər. Suallar adətən necə olur-olsun söhbəti davam etdirmək məqsədi ilə veilir, qadınlar həmişə söhbətin davam etməsində maraqlıdırlar. Həmsöhbətinin fikri ilə razı olmadıqlarını qadınlar çox vaxt açıq söz etirazı ilə deyil, sükutlda bildirirlər. Bəzi məlumatlara görə, kişi ilə müqayisədə qadınlarda şifahi aqressiya üsulları yaddır.

Verbal aqressiyanın «kişi» və «qadın» «interpretasiyaları da mövcuddur: qadınlar onu özünə qarşı hesab edir və ünsiyyəti qırmağa cəhd edir, kişilər isə buna söhbəti intensivləşdirmək üsulu kimi baxırlar. Qeyd olunub ki, qadınların sözünü kişilərdən çox kəsirlər. Qadınlarda daha təzyiqli nitq davranışı olsa da, replikalar daha nəzakətli olur. Qadın daha çox tələblərin «xahiş şəklində təqdim olunmasına» meyllidir.

Söhbətlərin mövzuları adətən qəbil inkişaf edir, amma dəqiq müəyyənləşdirilmiş mövzulu söhbətlər də olur. Qadınlar adətən söhbət zamanı daha çox üzr istəyir. Kişilər üçün isə həmsöhbətin nitqini, ələlxüsus o, qadın olanda, şərh etmək xarakterikdir. Mübahisə etmək, həmsöhbətin rəyini təkzib etmək, şərhinə məhəl qoymamaq daha çox kişi diskursuna aiddir. Kişilər adətən söhbətdə dominantlıq etməyə, onun gedişini idarə etməyə, öz məqsədlərini birbaşa, eyhamsız deməyə çalışır və bu zaman konkret, həddindən çox nəzakətli söz formaları işlətmir.

Dialoqda olan replikalar daha az şəxsi xarakter daşıyır. Kişilər söhbəti başlamağa daha çox meyllidirdlər, onların dialoqdakı replikaları daha çox, davam etmə müddəti isə uzundur. Kişilər suallara söhbəti uzatmaq üçün bir vasitə kimi yox, informasiya mənbəyi kimi baxmağa meyllidirlər. Söhbət zamanı onlar daha çox yaranmış problemləri həll etməyə və onlara aid məsləhətlər verməyə çalışırlar. Belə hesab olunur ki, qadın və kişilərin nitq stilləri hər şeydən əvvəl onların partnyorun daha əvvəl deyilən fikirlərə reaksiyası, hansı səviyyədə nəzərə alınması və bununla əlaqədar öz fikirlərini seçməsi və düzəlişlər etməsindən asılıdır.

Kişilər daha çox öz əvvəlki mülahizələrinə, qadınlar isə kommunikativ partnyorun mülahizələrinə istiqamətlənirlər. Bu halda, əgər kommunikasiya üzrə partnyorun tematik fokusu onlarınkı ilə düz gəlmirsə, qadınlar ona uyğunlaşmağa çalışırlar, kişilər isə belə vəziyyəti söhbətin düşgün mətləbdən uzaqlaşması kimi qəbul edərək, öz fikirlərini əvvəlki tematik istiqamətə yönəltməyə davam edirlər.

İnternet şəbəkəsində qadın və kişilərin kommunikasiya üzrə nitqlərinin son tədqiqatları belə bir maraqlı faktı aşkara çıxarmışdır: hətta tipik qadın imza vərəqələrində kişilər daha çox danışırdılar, onların elektron nitqləri və məktubları daha çox uzundur, bundan başqa qadınlar öz məktublarına (mesac) kişilərdən 5 dəfə az cavab alıblar.

Nəzərdə tutmaq lazımdır ki, «dilçilikdə qender tədqiqatları, feminist ədəbiyyatşünaslıqda olduğu kimi qoyulmuş problemin ölçüsündən asılı olaraq, filologiyanın dar çərçivələrinə yerləşmir və buna görə onları fənlərarası yanaşma olmadan təsəvvür etmək mümkün deyil. Tarix, sosiologiya, linqvistika və bir sıra başqa elmlər nəzərə alınmalıdır».[2]

Qender tədqiqatlarının inkişafı ədəbiyyatşünaslıqda da müşahidə olunur. Ümumi şəkildə desək, onlar insanın sosiumda öyrənilməsinə yönəldiliblər. Ədəbiyyata qender yanaşması yeni üfüqlər açır, ədəbi əsərlərin ideyasını daha yaxşı başa düşməyə, müəllif mövqeyini aşkar etməyə kömək edir.

Beləliklə, qender tədqiqatları elə bir elm sahəsidir ki, onun köməyi ilə bu və ya digər sosiumun xüsusi qadın və kişi rollarını necə müəyyən etməsi, formalaşdırması ictimai və şəxsi şüurda necə möhkəmləndirməsi, eləcə də bu bölgünün onlar üçün hansı nəticələr verəcəyini öyrənilir. Filologiyada bu tədqiqatlar hələ yeni inkişaf etməkdədir və sözsüz ki, onlarda müəyyən perspektiv var.

Kommunikativ interaksiya tədqiq edilən yerdə sosial linqvistikanın hazırladığı metodikanı – böyük miqdarda insanların sorğusu, anketləşdirilməsinə əsaslanan metodikadan istifadə etmək zəruridir. Belə ki, insan şəxsiyyətinin bir sıra parametrləri elə möhkəm birləşmişdir ki, az miqdarda informantların nümunəsində bütün dil daşıyıcıları üçün ümumi olan qanunauyğunluqlar haqqında nəti\cə çıxarmaq qeyri-mümkündur. Bununla əlaqədar tədqiqatçılar qrupunun işin və geniş material əhatəsini nəzərdə tutan xüsusi proyektlərin təqdimi çox perspektivlidir. Müxtəlif profilli mütəxəssislərin, məsələn, linqivist və hüquqşünasların əməkdaşlığı maraqlı nəticələr verə bilər.

Bundan başqa, dil təkcə postmodernistlərin hesab etdiyi kimi, fərdin dünyaya münasibətini müəyyən etmir və insanın dərketmə fəaliyyətinin hüdudlarını yaratmır, həmçinin insan da dili yaradıcı şəkildə inkişaf etdirərək onun dəyişməsinə təsir göstərir.

Bu nöqteyi-nəzərdən qender tədqiqatları üçün dilin kumulyativ funksiyalarını öyrənmək, yəni onda müəyyən qender stereotiplərini fiksasiya etmək, eləcə də onları cəmiyyətin ənənəvi cins-rol differensiasiyasında olan dəyişiklikləri əks etdirən dinamikalarının tədqiqi perspektivlidir. Dilin sözyaratma və nominativ sisteminin öyrənilməsi, dildə olan qender assimetriyaları və femininliyin və maskulinliyin geniş mədəni stereotiplərini aşkara çıxarmağa imkan verəcək.

## MÜZAKİRƏ ÜÇÜN SUALLAR VƏ TAPŞIRIQLAR

1. Filologiyada qender tədqiqatlarının tarixi.
2. Filologiyada qender aspektinin əsas konsepsiyaları və istiqamətləri.
3. Onların inkişaf perspektivləri.

*İş üsulları* - slaydlardan istifadə etməklə sual-cavab

## SLAYD MƏTNLƏRİ

Dilin struktur təhlilinin köməyi ilə qender tədqiqatlarının bir neçə qarşılıqlı bir-biri ilə bağlı **istiqamətləri** mövcuddur:

**Slayd № 1.** *Sosial-linqvistika* peşəsi, cinsi, yaşı, şəhər və ya kənd şəraitində yaşamasından asılı olaraq, insan qruplarında da dilin fəaliyyət göstərməsi haqqında geniş material verir. Məhz sosial linqvistika qadın və kişi nitqinin sabit deyil, nisbi xarakterdə olduğunu müəyyən etmişdir.

---

[2] Шоре Э. Феминистское литературоведение на пороге XXI века. К постановке проблемы (на материале русской литературы XIX века)/Литературоведение на пороге XXI века. Сб. статей. – М.,1998

**Slayd № 2.** *Psixolinqvistika,* qadın və kişi anlayışlarının spesifikliyini, insanın dil qabiliyyətlərinin spesifik qender inkişafını, uşaq nitqini tədqiq edir. Son vaxtlar psixolinqvistika neyrolinqvistika ilə qovuşur.

**Slayd № 3.** *İdentifikasion diaqnostika,* anonim müəllifin yazılı və şifahi mətnlərini, şəxsiyyətin parametlərini, o cümlədən cinsini müəyyən etmək məqsədi ilə öyrənir.

**Slayd № 4.** *Dil-mədəni və mədəniyyətlərarası* tədqiqatlar, qenderin mədəni spesifikliyini, mövcud cəmiyyətin dil və mədəniyyətindən asılı olaraq qurulmasında ümumi və xüsusi cəhətlərini öyrənir ki, bu da müxtəlif dil və mədəniyyətlərin androsentrizm dərəcəsini təyin etməyə imkan verir.

## ƏDƏBİYYAT


Ali təhsil sistemində qender problemləri təliminin metodoloji aspektləri. Elmi-praktiki konfransın materialları. – B., 2002

Qender: tarix, cəmiyyət, mədəniyyət. – B., 2002

Müasir sosial-siyasi dəyişikliklər konmətnində qender təhsilinin inkişafı. Elmi-praktiki konfransın materialları. – B., 2004

Sosial və humanitar fənnlərə qender nəzəriyyəsinin inteqrasiyası. Elmi-praktiki konfransın materialları. – B., 2001

Введение в гендерные исследования. В 3-х ч. - Харьков, СПб., 2001

Гендерные исследования в гуманитарных науках: современные подходы. Материалы международной научной конференции (Иваново, 15-16 сентября, 2000). – Иваново, 2000

Теория и методология гендерных исследований. Курс лекций / Под общ.ред. О.А.Ворониной. - М., 2001.

*Трофимова Е.И.* Терминологические вопросы в гендерных исследованиях / Гендер: язык, культура, коммуникация. Доклады 2-й международной конференции.- М., 2001.

*Уэст К., Зиммерман Д.* Создание гендера / Хрестоматия феминстских мятнов. (Переводы под ред. Е.Здравомысловой и А.Тёмкиной).- СПб. – М.,1998.

*Bergval, V.L., Bing, J.M., Freed, A.F.* Rethinking language and gender Research: Theory and Practice. London: Longman, 1996, 360pp.